Festivala Türkiyədən də istedadlı autizmli uşaqlar qatılıblar. İzmir Autizm Orkestri - İZOT xor qrupu tədbirdə maraqlı proqramla çıxış edib.

Ətrafındakı insanlardan anlayış, sevgi, qayğı gözləyən autizm sindromlu uşaqların özlərini bizlərdən biri hiss etmələri üçün bəzi nömrələrdə onların normal inkişaf edən həmyaşıdları ilə birlikdə çıxış etmələrinə şərait yaradılıb.

Tədbir çərçivəsində, həmçinin Dövlət Pantomim Teatrının aktyorlarının və cəmiyyətdə tanınan bir sıra peşə sahiblərinin iştirakı ilə "Autizm fərqli və bizdən biri" mövzusunda fləşmob təqdim olunub.

Autizmli uşaqların sosiallaşması, cəmiyyətə inteqrasiya olunması baxımından mühüm əhəmiyyət kəsb edən festival həm də maarifləndirici xarakter daşıyıb. Tədbir ərzində qonaqların "Autizm nədir?" sualına cavab tapmaları üçün qısametrajlı filmlər, sosial çarx, klip göstərilib, bukletlər paylanılıb.

**AZƏRTAC**

# Görkəmli şəxsiyyətlərin, xalq, vətən, dövlət qarşısında xidmətləri olan şəxslərin və şəhidlərin xatirəsinin əbədiləşdirilməsi üzrə Komissiyanın iclası olub

**Mayın 31-də Nazirlər Kabinetində görkəmli şəxsiyyətlərin, xalq, vətən, dövlət qarşısında xidmətləri olan şəxslərin və şəhidlərin xatirəsinin əbədiləşdirilməsi üzrə Komissiyanın ilk iclası olub.**



AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədovun sədrlik etdiyi iclasda müvafiq dövlət qurumlarının rəhbərlərinin və nümayəndələrinin iştirakı ilə müzakirələr aparılıb. Baş nazirin müavini bildirib ki, görkəmli şəxsiyyətlərin, xalq, vətən, dövlət qarşısında xidmətləri olan şəxslərin və şəhidlərin xatirəsinin əbədiləşdirilməsi Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Ölkə tarixində mühüm rol oynayan görkəmli ziyalılarımız, Vətənimizin müstəqilliyi uğrunda şəhid olanlar, şücaət göstərib Milli Qəhrəman adı qazananlar və onların ailə üzvləri daim dövlətin diqqət və qayğısı ilə əhatə olunurlar. Xalq, vətən, dövlət qarşısında xidmətləri olan həmin şəxslərin bir çoxlarının adları müxtəlif qurumlara, təhsil, mədəniyyət ocaqlarına, küçələrə və s. verilir. Sözügedən məsələ ilə bağlı müvafiq icra orqanlarından Nazirlər Kabinetinə yeni təkliflər daxil olur. Bu təkliflər Nazirlər Kabineti Aparatının aidiyyəti şöbələri tərəfindən araşdırılır və nəticəsi barədə arayışla birlikdə baxılması üçün Komissiyaya təqdim edilir.

Daha sonra Komissiyanın iclasında təkliflərlə bağlı müzakirələr aparılıb. Komissiya üzvlərinin rəyləri nəzərə alınaraq yekun qərar qəbul edilməsi üçün zəruri tövsiyələr verilib. Xatırladaq ki, Komissiya 2019-cu il aprelin 1-i Nazirlər Kabinetinin müvafiq qərarı ilə yaradılıb.

**AZƏRTAC**

*Li Litsenberqer:*

# Azərbaycanda innovasiya ekosisteminin inkişafı üçün böyük potensial var




**ABŞ-ın Azərbaycandakı səfiri Li Litsenberqer İnnovasiyalar Agentliyində olub.**

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, İnnovasiyalar Agentliyində nazir Ramin Quluzadə ilə L.Litsenberqer arasında görüş keçirilib. Görüşdə səfirə agentliyin fəaliyyəti barədə məlumat verilib. L.Litsenberqer İnnovasiyalar Agentliyinin Laboratoriya, biznes inkubasiya və akselerasiya mərkəzi ilə tanış olub.

Daha sonra yerli startapçılar və ABŞ-ın İT şirkətlərinin Azərbaycandakı nümayəndəlikləri ilə görüş keçirilib. Azərbaycanda innovasiya və yüksək texnologiyalar sahəsinin inkişafı ilə bağlı görülə biləcək işlər və gələcək planlar barədə fikir mübadiləsi aparılıb. Eyni zamanda, yerli startapların ABŞ akselerator və investorları ilə daha geniş əməkdaşlıq perspektivləri haqqında danışılıb.

Bu günə qədər 6000-dən çox azərbaycanlının mübadilə proqramı əsasında ABŞ-da olduğunu bildirən səfir vurğulayıb ki, bu rəqəmi qənaətbəxş hesab etmək olmaz.

"Düşünürəm ki, Azərbaycanda innovasiya ekosisteminin inkişafı üçün böyük potensial var. Mübadilə proqramlarının sayı artırılmalıdır. Belə proqramlar iki ölkə arasında əməkdaşlığın genişlənməsinə kömək edir. Səfirliyin büdcəsi məhdud olduğuna görə biz özəl şirkətlərin bu cür proqramlara sponsor olmasını arzu edirik", - deyə o bildirib.

Səfir qeyd edib ki, artıq Amerika Ticarət Palatasının üzvü olan şirkətlərlə mübadilə fəaliyyətinə sponsorluq etmələri ilə bağlı təkliflər verilib.

İnnovasiyalar Agentliyinin qurulması haqqında danışan nazir R.Quluzadə bildirib ki, ölkə rəhbərliyinin təşəbbüsü ilə Azərbaycanda innovasiya infrastrukturu formalaşdırılır: "İnformasiya-kommunikasiya texnologiyaları sahəsi dünyada dinamik inkişaf edir. Bu sahə ölkəmiz üçün də prioritet sahələrdən biridir və Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir".

Nazir qeyd edib ki, dövlət başçısı tərəfindən müəyyən edilmiş siyasətə uyğun olaraq ölkənin davamlı inkişafını təmin etmək üçün qeyri-neft sektoru, o cümlədən informasiya-kommunikasiya texnologiyaları və yüksək texnologiyalar sahəsi sürətlə inkişaf etdirilir.

R.Quluzadə startap hərəkatının inkişaf etdiyi ABŞ kimi bir ölkənin Azərbaycanda bu sahənin inkişafına göstərdiyi dəstəyin əhəmiyyətindən danışıb. Səfirlik və ABŞ şirkətləri ilə birgə layihələrin həyata keçirildiyini deyən nazir bu əməkdaşlığın davam edəcəyini bildirib.

Daha sonra ABŞ-ın texnologiya sahəsində fəaliyyət göstərən şirkətləri və birinci Azərbaycan-Amerika mübadilə proqramının iştirakçıları çıxış edib.

Çıxışlardan sonra nazir və səfir startapçıların suallarını cavablandırıb.

Sonda İnnovasiyalar Agentliyinin "Sponsorlar və tərəfdaşlar" guşəsinə ABŞ lövhəsi əlavə olunub.

**AZƏRTAC**

# Bakıda İtaliyanın milli bayramı qeyd edilib

**İtaliyanın Azərbaycandakı səfirliyi ölkəsinin milli bayramı münasibətilə mayın 31-də rəsmi qəbul təşkil edib.**

AZƏRTAC xəbər verir ki, qəbulda əvvəlcə Azərbaycanın və İtaliyanın dövlət himnləri səsləndirilib.

İtaliyanın Azərbaycandakı səfiri Auqusto Massari qəbulda çıxış edərək Azərbaycan ilə İtaliya arasındakı münasibətlərdən danışıb. Bildirib ki, son illər bir neçə qarşılıqlı yüksəksəviyyəli səfərlər bu münasibətləri daha da inkişaf etdirib. İki ölkə arasında ticarət dövriyyəsi ildən-ilə artır. Münasibətlər yalnız neft və qaz ilə məhdudlaşmır. Azərbaycanda italyan dilinə yüksək maraq var. İtaliyada azərbaycanlı turistlərin sayı ildən-ilə artır.

Səfir əmin olduğunu bildirib ki, iki ölkə arasında münasibətlər bundan sonra da inkişaf edəcək.






Energetika naziri Pərviz Şahbazov bayram münasibətilə İtaliya xalqını Azərbaycan Hökuməti adından təbrik edib.

Nazir iki ölkə arasındakı münasibətlərin inkişafından danışıb. Bildirib ki, Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın İtaliyaya, İtaliya Prezidenti Sercio Mattarellanın isə Azərbaycana səfərləri bu əlaqələrin möhkəmlənməsində mühüm rol oynayıb. İtaliya Azərbaycanın əsas ticarət tərəfdaşıdır. Ötən il iki ölkə arasında ticarət dövriyyəsi daha da artıb. İtaliya ilə iqtisadi tərəfdaşlıq, ilk növbədə, enerji sahəsini əhatə edir. Lakin münasibətlər bununla məhdudlaşmır. Ölkələrimiz arasında bütün sahələrdə əlaqələr yüksək səviyyədədir.

Tədbir bədii hissə ilə davam edib.

Qəbulda rəsmi şəxslər, Milli Məclisin deputatları, xarici ölkələrin Bakıdakı səfirləri, beynəlxalq təşkilatların təmsilçiləri, kütləvi informasiya vasitələrinin, ictimaiyyətin nümayəndələri iştirak ediblər.

**AZƏRTAC**

# Energetika naziri Lənkəranda vətəndaşları qəbul edib

**Energetika naziri Pərviz Şahbazov mayın 31-də Lənkəranda Enerji Məsələlərini Tənzimləmə Agentliyinin Lənkəran filialının inzibati binasında vətəndaşları qəbul edib.**



Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, nazirliyin aidiyyəti struktur bölmələrinin rəhbərlərinin iştirakı ilə keçirilmiş qəbulda Lənkəran, Astara və digər rayonlardan olan vətəndaşlar iştirak ediblər. Vətəndaşların müraciətləri elektrik enerjisinə görə yaranan borcun silinməsi, elektrik enerjisi ilə bağlı texniki şərtin verilməsi, elektrik enerjisinin keyfiyyəti, elektrik enerjisi təchizatında fasilələr, elektrik qurğu və avadanlıqlarının istismar vəziyyəti, qazlaşma, işlə təminat və digər məsələlərlə bağlı olub.

Nazirliyin aidiyyəti struktur bölmələrinin nümayəndələrinin iştirakı ilə keçirilmiş qəbulda vətəndaşlar diqqətlə dinlənilib, müraciətlərin operativ araşdırılması və qanunvericiliyə uyğun həlli üçün müvafiq tapşırıqlar verilib. Qəbulda ümumilikdə 30-dək vətəndaşın müraciətinə baxılıb.

Qəbula gələnlər bölgələrdə vətəndaşların qəbulunun təşkilinə, göstərilən hərtərəfli diqqət və qayğıya, yaradılan şəraitə görə dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, Lənkəranda təşkil olunmuş qəbullar barədə vətəndaşların ətraflı məlumatlandırılması üçün KİV-lərdə, Energetika Nazirliyinin rəsmi internet saytında (www.minenergy.gov.az) və "Facebook" səhifəsində elanlar verilib, nazirliyin saytında vətəndaşların qəbulu üçün elektron müraciətlərin onlayn qeydiyyata alınması məqsədilə imkanlar yaradılıb.

**AZƏRTAC**

# Maliyyə Nazirliyi fiziki şəxslərin problemli kreditləri üzrə kompensasiyaların ödənilməsi üçün 600 milyon manat ayırıb

**"Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Prezidentinin 2019-cu il 28 fevral tarixli Fərmanının icrası olaraq Maliyyə Nazirliyi tərəfindən dövlət büdcəsinin müvafiq xərc maddəsindən fiziki şəxslərin problemli kreditləri üzrə kompensasiyaların ödənilməsi üçün 6 tranş çərçivəsində ümumilikdə 600,1 milyon manat ayrılaraq maliyyələşməsi həyata keçirilib.**

Bu barədə AZƏRTAC-a Maliyyə Nazirliyinin mətbuat katibi Mais Piriyev deyib.

Onun sözlərinə görə, Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən Maliyyə Nazirliyinə təqdim olunan siyahı əsasında bu il aprelin 18-də 350,8 milyon manat, mayın 6-da 53,5 milyon manat, mayın 14-də 26,3 milyon manat, mayın 15-də 42,6 milyon manat, mayın 23-də 46,2 milyon manat və son olaraq mayın 31-də 80,6 milyon manat məbləğində vəsaitlər bankların, ləğvetmə prosesində olan bankların və poçt rabitəsinin milli operatorunun Mərkəzi Bankdakı müxbir hesablarına köçürülüb. Beləliklə, bugünkü tarixə Maliyyə Nazirliyi tərəfindən fiziki şəxslərin problemli kreditləri üzrə kompensasiyaların 91,4 faizi bankların, ləğvetmə prosesində olan bankların və poçt operatorunun Mərkəzi Bankdakı hesablarına köçürülməsi təmin edilib.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il fevralın 28-də imzaladığı Fərmanda baş vermiş devalvasiyalar nəticəsində dəymiş zərərlə bağlı fiziki şəxslərə hesablanmış kompensasiya məbləğinin 3 aydan gec olmayaraq dövlət büdcəsinin vəsaiti hesabına ödənilməsi tapşırılmışdı.

**AZƏRTAC**

*1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür*

# Uşaq hüquqlarının müdafiəsi müasir dövrün prioritetlərindəndir

**Dünyanın hər yerində uşaqlara qayğı və onların qorunması xüsusi əhəmiyyət kəsb edir. Hər bir ölkə uşaqları qorumağı, hüquqlarını müdafiə etməyi özünün əsas vəzifəsi hesab edərək dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyən edir. Hər bir xalqın, dövlətin ən böyük və qiymətli sərvəti uşaqlardır. Bu müdafiənin daha möhkəm olması üçün müxtəlif beynəlxalq təşkilatlar yaradılır, qlobal səviyyəli sənədlər qəbul olunaraq imzalanır, forumlar, tədbirlər həyata keçirilir. Bu məqsədlə də 1950-ci il 1 iyun tarixi Uşaqların Beynəlxalq Müdafiəsi Günü kimi BMT Baş Assambleyası tərəfindən qeyd olunmağa başlanılıb. BMT uşaqların hüquqlarını, həyat və sağlamlıqlarını öz fəaliyyətinin prioritet istiqamətlərindən biri kimi elan etmişdir. Dünyanın bir çox ölkələrində olduğu kimi Azərbaycanda da bu gün böyük təntənə ilə yüksək səviyyədə qeyd edilir. Hazırda respublikada iki milyon altı yüz mindən çox uşaq var, bu ölkə əhalisinin 4-də 1-dən bir qədər artıqdır.**



Gənc nəslin vətənpərvərlik, tariximizə, milli köklərə bağlılıq, böyüklərə yüksək ehtiram və mənəvi zənginlik duyğuları ilə tərbiyə olunması, onların şəxsiyyət və vətəndaş kimi formalaşması üçün ailə də, dövlət də məsuliyyət daşıyır. Uşağı sağlam, cəmiyyətə faydalı vətəndaş kimi böyütmək çətin və məsuliyyətlidir. Buna görə də Azərbaycanda uşaq məsələlərinə dövlət tərəfindən həmişə diqqət yetirilir. Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş, bu gün isə möhtərəm Prezidentimiz İlham Əliyevin uğurla davam etdirdiyi dövlət uşaq siyasəti milli strategiyaya çevrilib. Azərbaycan Respublikasının dövlət uşaq siyasətinin başlıca prinsipləri uşaqların keyfiyyətli təhsil və yüksək standartlara cavab verən tibbi xidmətlərlə təmin edilməsi, hərtərəfli qayğı ilə əhatə olunması, yüksək mənəvi və sosial mühitdə böyüməsi üçün zəruri şəraitin yaradılması, şəxsiyyət və layiqli vətəndaş kimi formalaşmasıdır. Azərbaycanda həmişə uşaqlara məhəbbətlə yanaşılır, onların sağlam və gümrah, eyni zamanda, savadlı və vətənpərvər böyümələri üçün hər cür şərait yaradılır.

Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə ölkəmizin qoşulduğu ilk beynəlxalq sənədlərdən biri "Uşaq Hüquqları haqqında Konvensiya"dır. Respublikamız "Ölkələrarası övladlığa götürmə ilə bağlı uşaqların müdafiəsi və əməkdaşlıq haqqında", "Uşaqların kənd təsərrüfatında işə buraxılmasının minimum yaşı haqqında", "Uşaq əməyinin ən pis formalarının qadağan edilməsinə və onların aradan qaldırılması üçün təcili tədbirlərə dair" və digər Konvensiyalara qoşulmuşdur. Dövlət tərəfindən ratifikasiya edilmiş Konvensiyalara əsasən daxili qanunvericilikdə mühüm islahatlar aparılmışdır.

Cəmiyyətin həssas və kövrək zümrəsi olan uşaqlara yüksək qayğı və nəvazişlə yanaşma bir daha göstərir ki, Azərbaycanda uşaq məsələlərinə dövlət tərəfindən həmişə diqqət yetirilir. Dövlət başçısı cənab İlham Əliyev dəfələrlə öz çıxışlarında qeyd edir ki, "elə etməliyik ki, bütün uşaqlar savadlı, bilikli olsunlar, gələcəkdə özləri üçün gözəl həyat qura bilsinlər, dövlətimiz üçün dəyərli vətəndaşlar olsunlar". Bu ideya öz real həllini həyatda tapır. Belə ki, son illər ərzində rayonlarda və bölgələrdə üç mindən çox orta məktəb, altı yüzdən çox xəstəxana, tibb məntəqələri, olimpiya və onlarla gənclər mərkəzi tikilib istifadəyə verilmişdir.

Müvafiq sahələrdə görülmüş işlər sırasında ilk olaraq qanunvericilik bazasının yaradılması və təkmilləşdirilməsi çox vacibdir. Həmin qanunların qəbul edilməsi yeni düşüncə tərzinin formalaşmasına və müəyyən stereotiplərin aradan qaldırılmasına təkan vermişdir. Uşaqların təhsildən yayınması, əməyə cəlb edilməsi və onların məruz qaldığı digər sosial-psixoloji problemlər valideyn məsuliyyətinin artırılmasını zəruri edir. Bütün bu və digər məsələlər nəzərə alınaraq, Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında Qanunları qəbul edilmişdir. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası və 2016-2030-cu illər üçün Dayanıqlı İnkişaf Məqsədlərini əsas götürərək, uşaqların bütün sahələrdə imkanlarının daha da genişləndirilməsi, hüquqlarının müdafiəsi üçün müvafiq sənədlər hazırlanır. Uşaq Strategiyası rəy üçün Nazirlər Kabinetinə təqdim olunmuşdur. Uşaq Məcəlləsi ilə bağlı ilkin hazırlıq prosesi aparılır. Ümumiyyətlə, DİM-lərdə müəyyən edilmiş 17 məqsədin hər biri bu və ya digər şəkildə uşaq hüquqları ilə əlaqəlidir, istər təhsil, istər sağlamlıq, istər sülh, ədalət, istər qeyri-bərabərliyin azaldılması, gender bərabərliyi və digər məqsədlərdə uşaqların hüquqlarının qorunması məsələsi yer almışdır.

Respublikanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın uşaq məsələlərinə diqqəti bu sahəyə qayğının daha da artırılmasına səbəb olmuşdur. Mehriban xanım Əliyeva uşaqların hərtərəfli inkişafı, keyfiyyətli təhsil, yüksək standartlara cavab verən tibbi xidmətlərlə təmin olunması istiqamətində önəmli layihələr həyata keçirir. Vacib layihələr çərçivəsində körpələr evləri, bağçalar və internat məktəbləri əsaslı təmir olunur, yeniləri inşa olunur. Uşaq evləri və internat yetirmələrinin sosial-psixoloji reabilitasiyasına imkan yaradacaq resurs mərkəzinin yaradılması, "Kor və zəif görən uşaqlar üçün informasiya-kommunikasiya texnologiyalarına çıxışın təmin edilməsi", "Təhsilə dəstək" və "İnklüziv təhsil" proqramlarının həyata keçirilməsi Fondun xidmətləri sırasında xüsusi vurğulanmalıdır. "Diabetli uşaqlara ən yüksək qayğı" və "Talassemiyasız həyat naminə" layihələri cəmiyyətin diqqətinin uşaqların sağlamlığına yönəldilməsi baxımından müstəsna əhəmiyyət daşıyır.

Uşaq məsələləri ilə əlaqədar dövlət qurumları arasında koordinasiya və nəzarət sisteminin təkmilləşdirilməsi çox vacibdir. Məlumat üçün qeyd etməliyik ki, 2012-ci ildə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası" təsdiq edilmişdir. Dövlət müəssisələrində uşaqların qidalanma, nəzarət, təhlükəsizlik, zorakılığa məruz qalma və digər məsələlərlə bağlı monitorinqi aparılmışdır. Monitorinqin nəticəsində hazırlanmış tövsiyələr əsasında təlim-tərbiyə müəssisələrində şərait standartlara uyğunlaşdırılmış, mütəxəssislər üçün yeni təlimlər keçirilmişdir. Uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankı yaradılmışdır, artıq məlumatlar daxil edilir. Bunun nəticəsində isə uşaq problemlərinin dəqiq statistikası müəyyənləşərək, həmin sahədə daha effektiv preventiv tədbirlərin həyata keçirilməsinə səbəb olacaq. Eyni zamanda, erkən nikah hallarının və uşaq əməyinin qarşısının alınması üçün maarifləndirmənin gücləndirilməsi, valideyn himayəsindən məhrum uşaqların internat və uşaq evlərini tərk etdikdən sonra onların məşğulluğunun təmin edilməsi, eləcə də, müxtəlif peşələrin öyrədilməsi, məişət zorakılığının və insan alverinin qurbanı olmuş uşaqların sosial reabilitasiyası və cəmiyyətə inteqrasiyası istiqamətində tədbirlər keçirilir.

Azərbaycan uşaqları bu gün dövlətin və cəmiyyətin hərtərəfli qayğısı ilə əhatə olunsa da, təəssüf ki, torpaqlarımızın işğalı nəticəsində uşaqlar doğma ev-eşiklərindən didərgin düşmüş, azad, sərbəst yaşamaq hüquqları pozulmuşdur. Azərbaycan uşaqlarının hüquqlarını pozmuş, onları öz doğma yurd-yuvasından didərgin salmış təcavüzkar Ermənistan Respublikası hələ də beynəlxalq hüququn tələbləri ilə hesablaşmayaraq işğal etdiyi əraziləri azad etmək istəmir. Bu hərbi münaqişə zamanı yüz doxsan üç uşaq qətlə yetirilmiş, yaralanan uşaqların sayı isə yüzlərlədir. Əfsuslar olsun ki, 1994-cü ildə atəşkəs rejiminin elan olunmasına baxmayaraq, ermənilərin Azərbaycanda uşaqları qətlə yetirilməsi faktları qeydə alınmaqda davam edir. Ədalətsiz, ikili standartların əsiri olan dünyada körpələrin fəryadını eşidən, onların səsinə səs verən yoxdur. Ümid etmək istərdik ki, Azərbaycanın bu qaçqın-köçkün balaları yaxın, lap yaxın vaxtlarda özlərinin bu gözəl bayramlarını doğma yurdlarında qeyd edəcəklər. Buna dünyanın bütün uşaqları kimi onların da haqqı var! Və bu arzunun gerçək olması üçün ölkə başçısı cənab İlham Əliyev çox mühüm addımlar atır. Azərbaycanın Birinci vitse-prezidenti kimi xanım Mehriban Əliyevanın elə ilk keçirdiyi müşavirə də müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin mənzillə təmin edilməsinə həsr olunmuşdur. Azərbaycan Respublikası Prezidentinin "İşğaldan azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı tədbirlər haqqında" imzaladığı Sərəncam hər birimizdə, xüsusilə, evlərindən, ata - baba yurdlarından didərgin düşmüş vətəndaşlarımızda böyük inam yaratmışdır.

Köməyə ehtiyacı olan, zorakılıqdan əziyyət çəkmiş uşaqlarla mütəmadi işlərin aparılması olduqca vacib məsələdir. Hazırda bütün yerli icra hakimiyyətlərində müvafiq yerli icra orqanlarının nümayəndələrindən ibarət Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qrupları yaradılmışdır. Monitorinq qrupları eyni zamanda, profilaktiki işlər təşkil edir, zərərçəkmiş uşaqlara lazımi psixoloji və hüquqi yardımlar göstərirlər. Komitənin regionlarda fəaliyyət göstərən Uşaq və Ailələrə Dəstək Mərkəzləri risk qrupuna aid olan ailə, qadın və uşaqlara dəstək göstərir, vətəndaşların müraciəti əsasında onları müxtəlif xidmətlərə yönəldirlər. 2018-ci il ərzində mərkəzlərin fəaliyyətindən iyirmi mindən çox (20 748) vətəndaş bəhrələnmişdir. Buna görə də mərkəzlərin fəaliyyətini təkmilləşdirmək məqsədilə əməkdaşların peşəkarlığının artırılması ilə yanaşı, maddi-texniki bazası da intensiv şəkildə möhkəmləndirilir. 2018-ci ildə daha bir Mərkəzin Zaqataladakı yeni binasının açılışı olmuşdur. Bu il növbəti investisiya layihəsi çərçivəsində Goranboydakı Mərkəzin yenidən inşası nəzərdə tutulur.

Ölkədə vahid dövlət uşaq siyasətini həyata keçirən dövlət qurumu kimi, Komitəmiz mütəmadi olaraq, müxtəlif layihələr həyata keçirir. Uşaqların öz hüquqlarını bilməsi, ictimai həyatda iştirakçılığının artırılması da aktual məsələlərdəndir. Bu baxımdan, həmin proseslərdə Heydər Əliyev Fondu və BMT-nin Uşaq Fondunun dəstəyi ilə keçirilən Ümumrespublika Uşaq forumlarının xüsusi rolu vardır. Hər iki ildən bir keçirilən Uşaq forumlarında uşaqlar sərbəst şəkildə mühüm problemlərə münasibətlərini bildirir, öz həmyaşıdlarının problemlərini ictimailəşdirirlər. Onların irəli sürdükləri təklif və məsələləri dövlət məmurları və parlament üzvləri ilə müzakirəyə qoyuruq. 2017-ci ildə IV Uşaq Forumu keçirilmişdir. Forumda Azərbaycanın bütün şəhər və rayonlarından fəallıqları ilə seçilən, xüsusi bacarıq və qabiliyyətləri ilə fərqlənən, liderlik keyfiyyətlərinə məxsus 6-18 yaş arası 380 uşaq iştirak etmişdir.

Uşaqların sağlam və firavan mühitdə böyüməsi, inkişaf etməsi bir dövlətin deyil, bütövlükdə bəşəriyyətin qarşısında dayanan mühüm məsələdir. Biz bir sıra ölkələrin aidiyyəti dövlət orqanları, eləcə də beynəlxalq təşkilatlarla tərəfdaşıq. Qeyd etmək istərdik ki, BMT-nin Uşaq Fondu, Heydər Əliyev Fondu ilə birgə keçirilən Ümumrespublika Uşaq forumlarını, məişət zorakılığı, erkən nikah, təhsildən yayınma hallarının qarşısının alınması və digər layihələr həm milli qanunvericiliyin güclənməsində, həm də maarifləndirici işlərin reallaşmasında xüsusi əhəmiyyətə malikdir. Komitə bu təşkilatlarla ölkədə küçə uşaqları, nikahdan kənar doğumun qeydiyyatı, erkən nikah halları üzrə vəziyyəti araşdırmış, "Doğulan uşaqların cinsə görə nisbətinin pozulmasının səbəbləri: Mövcud vəziyyətin təhlili və problemin həlli yolları" mövzusunda sosialoji tədqiqat keçirilmişdir. Bununla əlaqədar olaraq təklif və tövsiyələr hazırlanmışdır. Eyni zamanda, Avropa Şurası Parlament Assambleyasının müvafiq Komitəsi ilə əməkdaşlıq çərçivəsində uşaqların hüquqlarının qorunması və onların səlahiyyətləndirilməsi üzrə məlumatlandırıcı və maarifləndirici kampaniyalar keçirilir.

Bu gün cəmiyyəti narahat edən məsələlərdən biri də informasiya texnologiyalarının imkanlarının artması, internetin sərhəd tanımadan həyatımızın vacib, ayrılmaz bir tərkib hissəsinə çevrilməsi nəticəsində uşaqların zərərli informasiyalardan qorunmasıdır. Onlar da kompüter yeniliklərini - sosial şəbəkələri, onlayn oyunları, müxtəlif proqramları sürətlə mənimsəyir. Bu çox normaldır, çünki inkişaf edir, daha yeni və son texnologiyalardan istifadə etməyi öyrənirlər. Nəzərə alsaq ki, bu gün internetdə xeyirli məlumatlarla bərabər, bir sıra müxtəlif ziyanlı informasiyalar da mövcuddur. Uşaqların internet təhlükəsizliyinin təmin olunması olduqca önəmli məsələdir. Bu mövzuda həm valideynlər, həm də uşaqlar düzgün istiqamətləndirilməlidir. Uşaqlar valideynlərin diqqətindən yayınaraq şiddət, müxtəlif pis vərdişlər aşılayan videolara asanlıqla çıxış əldə edirlər. Bu isə uşaqlarda hələ kiçik yaşlardan aqressiya, şiddətə meyillilik və mənəvi travmalara gətirib çıxarır. Əsas təhlükələrdən biri onların cinayətkarların hədəfinə düşməsidir. İnternetdən, mediadan gələn zərərli informasiyalardan uşaqların qorunması üçün Komitə olaraq, tərəfimizdən internetdə uşaq hüquqlarının müdafiəsi məqsədilə milli qanunvericilik təkmilləşdirilir, maarifləndirici tədbirlər keçirilir, təhlükəsizlik proqram sistemləri yaradılır. "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 15-ci maddəsinə əsasən uşaqların sağlamlığına və inkişafına ziyan vuran informasiyadan qorunması müvafiq qanunla tənzimlənir. Ötən il Komitə tərəfindən hazırlanan "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Qanun layihəsi Milli Məclis tərəfindən qəbul edilib və cənab Prezident tərəfindən imzalanmışdır. Qanun 2020-ci ildə qüvvəyə minəcək. Qanun layihəsində uşaqlar üçün zərərli informasiyanın növləri müəyyənləşib. Qanunun müvafiq bəndinə əsasən, uşaqlar arasında dövriyyəsi qadağan edilən informasiya məhsullarının uşaqların ola biləcəyi yerlərdə inzibati, texniki proqram və avadanlıq vasitələrinin tətbiq edilmədən yayılmasına yol verilmir. Ölkəmiz uşaqları bu cür təhlükələrdən qorumaq məqsədi ilə həm də 2001-ci ildə "Kibercinayətkarlıq haqqında" Budapeşt konvensiyasına da qoşulmuşdur.

BMT-nin Uşaq Hüquqları Komitəsinin tövsiyələrinə əsasən, Dövlət Komitəsinin təşəbbüsü ilə "Uşaqların internet təhlükəsizliyi" layihəsi çərçivəsində "Valideyn-internet təhlükəsizliyi və nəzarət" proqramı (kidsafe) yaradılmışdır. Proqram təminatı uşaqların internet məkanında müdafiəsinə, valideynlərin uşaqların daxil olduğu elektron səhifələri və sorğuları haqqında məlumatlandırılmasına xidmət edir. www.kidsafe.az proqramında daxili 10000-dən çox pornoqrafik, ekstremik amillər, zorakılıq, spam-virus xarakterli və s. filtrləmə məlumat bazası ilə tam formada qoruyucu funksiyası ilə təmin olunmuşdur. Eləcə də istifadəçi tərəfindən spesifik filtrləmə funksiyası da əlavə olunmuşdur. Proqramda uşağın istifadəsi zamanı keylogger sistemi işə düşərək istifadə etdiyi vebsaytlar, proqramlar və sözlər kimi istənilən məlumatlar qeyd edilərək valideynə ötürülür. Bu cür qabaqlayıcı tədbirlərin görülməsi prosesi növbəti illərdə də mütəmadi olaraq davam etdirilməlidir. Onu da qeyd edək ki, orta məktəblərdə şagirdlərin iştirakı ilə "Uşaqların zərərli informasiyalardan qorunması" mövzusunda maarifləndirici təlimlərə başlamışıq və bu prosesin davamlı olmasını təmin edəcəyik.

Uşaq hüquqlarının müdafiəsi, onların normal inkişafına və sağlamlığına mənfi təsir göstərən hallardan və narkomaniya kimi zərərli vərdişlərdən qorunması məqsədilə məktəblərdə yuxarı sinif şagirdlərinin, xüsusən də həssas təbəqədən olan uşaqların iştirakı ilə Komitə tərəfindən maarifləndirmə kampaniyası keçirilmişdir. Bu kampaniyalar çərçivəsində Təhsil, Səhiyyə, Ədliyyə nazirlikləri, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, rayon icra hakimiyyətlərinin Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə komissiyaları, rayon Polis idarələrinin yetkinlik yaşına çatmayanlarla işləyən inspektorları, rayon Vətəndaş Vəziyyətləri Aktlarının Dövlət Qeydiyyatı idarələrinin, müvafiq QHT-lərin nümayəndələri, o cümlədən məktəblərin nəzdində Valideyn-müəllim Assosiasiyası rəhbərləri, məktəb psixoloqları da cəlb olunmaqla müvafiq tədbirlər keçirilmişdir.

Eyni zamanda, dövlət tərəfindən yaranmış bütün imkanlarla yanaşı, bu gün ailələrin üzərinə də böyük məsuliyyət düşür. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın sözləri ilə desək , "Ən müasir internat məktəb və ən yaxşı uşaq evi ailəni əvəz edə bilməz", buna görə də, ailələrimiz çox möhkəm, milli, mənəvi dayaqlar əsasında qurulmalı, hər bir üzvü isə bir-biri və cəmiyyət qarşısında öz məsuliyyətini dərk etməlidir. İlk növbədə ailədə valideyn məsuliyyətinin artırılması ən önəmli məsələlərdən biridir. Təcrübə göstərir ki, ailələrin dağılmasında əsas səbəblərdən biri valideynlərin vaxtı ilə öz övladlarını düzgün tərbiyə etməməsidir. Ailəyə ciddi münasibət olmalıdır. Lakin biz bəzən görürük ki, sosial və mənəvi məsuliyyət hissi aşağı olan insanlar ailə qurur. Və bu da bir çox hallarda boşanma ilə nəticələnir. Hazırda beynəlxalq təşkilatların uşaq məsələləri üzrə qurumlarında, bir sıra ölkələrdə müsbət valideynlik təcrübəsinin yaradılması məsələsi çox aktualdır. Müasir dövrdə informasiya çoxluğu və qlobal proseslər valideyn - övlad münasibətlərinə yeni tendensiyalar gətirir. Bizə olan müraciətlərdə də görürük ki, valideynlərin övladları ilə ünsiyyətində, xüsusilə də uşağın keçid yaş dövrlərində bir sıra çətinliklər yaranır ki, bu da ağır fəsadlara səbəb olur. Eyni zamanda, əlilliyi olan uşaqlarla da münasibətin qurulmasında valideynlər problemlərlə üzləşir. Buna görə də belə bir xidmətin göstərilməsinə ehtiyac vardır. Komitənin Uşaq və Ailələrə Dəstək mərkəzlərində mütəxəssislər tərəfindən valideynlərə belə bir xidmət göstərilir və bu sahədə müsbət nəticələrimiz var. Lakin belə bir xidmətin ölkə üzrə göstərilməsi daha məqsədəmüvafiq olardı.

Uşaqların sağlam və xoşbəxt böyüməsi həmişə aktual olmuşdur, lakin müasir dövrdə, xüsusilə də hərbi münaqişələr, kataklizmlər, terrorizm və zorakı ekstremizmin fonunda bu məsələ özünü daha qabarıq şəkildə göstərir. Əlbəttə, uşaq hüquqlarının müdafiəsi yalnız bir dövlətin deyil, beynəlxalq birliyin, vətəndaş cəmiyyətlərinin, həmçinin siyasi və sosial qüvvələrin birgə səyləri nəticəsində mümkündür. Əgər ailə dövlətin kiçik modelidirsə, uşaqlar isə ailənin özəyidir. Onların hüquqlarının təmin edilməsi həm valideynlərin, həm dövlətin, həm də cəmiyyətin qarşısında duran əsas məqsəddir. Sonda bir daha qeyd etmək istərdik ki, Azərbaycanda həyata keçirilən Dövlət proqramları, layihələr, tədbirlər uşaqların müdafiəsi sahəsinə uğurlu töhfələr verəcək və bu istiqamətdə fəaliyyət daha da güclənəcəkdir. Qarşıya qoyulan vəzifələrə nail olmaq üçün isə hər birimiz səylərimizi gücləndirməli və birləşdirməliyik.

**Hicran HÜSEYNOVA,**
**Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri, siyasi elmlər doktoru, professor.**

# Körpələrin ikinci evi



**Nərimanov rayonundakı 80 saylı körpələr evi-uşaq bağçası "Gənclik" metrostansiyasının yaxınlığında romantik bir guşədə yerləşir. Geniş əraziyə malik olan bağçada növ-növ bəzək ağacları gül-çiçək kolları, uşaqlar tərəfindən sidq ürəklə sevilən müxtəlif əyləncələr zövqlə hazırlanmış maral, ayı, quş və digər heyvanların maketləri diqqəti cəlb edir. Uşaqlar açıq havada gəzintiyə çıxarkən bu yerləri seyr edir, mahnılar oxuyur, hər gün özlərinin ikinci evi adlandırdıqları bu gözəl məkandan xoş ovqatla ayrılırlar.**

Biz körpələr evi-uşaq bağçasında olarkən ayrı-ayrı qruplardakı balaca fidanlarla, onların ana kimi sevdikləri tərbiyəçilərlə görüşdük. Hər şey yüksək səviyyədə idi. Hiss olunurdu ki, uşaqlar qayğı və diqqətlə əhatə olunmuşlar, kiçik yaşlarından gülüzlü balaların Vətənə məhəbbət ruhunda böyüməsinə maksimum səy göstərilir.

Biz bağçada ayrı-ayrı valideynlərlə görüşüb söhbət etdik. Onların hər biri bağçanın xidmətini yüksək dəyərləndirdi, vurğulandı ki, gün gələcək ki, uşaqlar mükəmməl biliklə məktəblərə qədəm qoyacaq, Vətənin layiqli övladlarına sahib olacaqlar.

Söhbət əsnasında valideyn Xəyalə Aslanlı qəlbindən süzülüb gələn xoş sözləri bizimlə yarı böldü və qürur hissi ilə bildirdi ki, Ayan və Nuray adlı iki qızı 80 saylı körpələr evi-uşaq bağçasında tərbiyə olunur. Burada balacalara qayğı və diqqət dünya standartlarına cavab verir. Uşaqlar hər gün, hər saat yeni-yeni sözlər öyrənir, oxuduqları mahnılara və ifa etdikləri milli rəqslərə isə söz ola bilməz. Onların milli ruhda böyüməsi diqqət mərkəzindədir.

Bağçanın müdiri uşaq psixologiyasını dərindən bilən, peşəsinə sidq ürəklə bağlanan, valideynlərin ümid çırağına çevrilən Validə Əsədovadır. O, Uşaqların Beynəlxalq Müdafiəsi Günü ərəfəsində bağçada keçirilən rəngarəng tədbirlərdən ürəklə danışdı: -80 saylı körpələr evi-uşaq bağçası 1969-cu ildən fəaliyyət göstərir. Əvvəllər bağça bərbad vəziyyətdə idi, uşaqların qəlbini oxşayan əyləncəli tədbirlər keçirmək mümkün deyildi. Fərəhlə qeyd etmək lazımdır ki, Heydər Əliyev Fondunun dəstəyi ilə bağçada əsaslı təmir işi aparıldı və geniş uyğunluğa, estetik gözəlliyə malik olan bu bağça 2018-ci il martın 6-da istifadəyə verildi. Açılış mərasimində fondun prezidenti Mehriban xanım Əliyevanın iştirak etməsi rayon sakinləri tərəfindən razılıqla qarşılandı.

Bağçanın geniş həyəti, zövqlə hazırlanmış rəsm əsərləri, yaşıllıqlar nağıllar dünyasını xatırladır.

Bu gün bağçada 7 qrup fəaliyyət göstərir. Bunların 5-i azərbaycanlı, 2-si isə rus qruplarıdır. Uşaqların Azərbaycan və rus dillərində söylədikləri şeirlər, oxuduqları oynaq mahnılar təqdirəlayiqdir. Ayrı-ayrı qruplara 135 uşaq cəlb olunmuşdur. Tərbiyəçilər çalışırlar ki, körpələr musiqiyə maraq göstərsinlər, milli rəqslərimizi peşəkarlıqla ifa etsinlər, bayram şənliklərində istedadlarını yüksək səviyyədə nümayiş etdirsinlər.

Qrafikə uyğun olaraq hər gün uşaqlar gəzintiyə çıxır, təbiətin qoynunda əyləncələrlə məşğul olur, onlara verilən yeməklərdə qida rejimi lazımi qaydada qorunub saxlanılır. Xüsusilə körpələrin sağlamlığının qorunub saxlanılması diqqət mərkəzindədir.

Uşaqlara mütəmadi olaraq nağıllar danışılır, onların ifasında kiçik səhnəciklər hazırlanır.

Vurğulamaq lazımdır ki, bu günlərdə bağçada Republika Günü münasibətilə yadda qalan bayram tədbiri keçirilmişdir. Ümumiyyətlə burada həmişə milli bayramlarla bağlı mərasimlərin keçirilməsi ənənə şəklini almışdır.

Bağçanın müdiri Validə Əsədova bağçada işlərin ritmik getməsinə görə Bakı Şəhər İcra Hakimiyyətinin rəhbərlərinin ünvanına xoş sözlər dedi.



Bağça uşaqlarına nəviziş göstərilməsi onların dünyagörüşünün formalaşmasında tərbiyyəçilərdən Sevinc Ələsgərova, Aygün Yəhyayeva, Leyla Cəfərova, Gülnarə Rəcəbova və başqalrının yaxşı işi qeyd olunmalıdır.

Bağça körpələrin ikinci evidir desək, heç də yanılmarıq. Onlar burada uşaqlıq illərini şən və mənalı keçirir, müstəqil Azərbaycanın layiqli övladları kimi formalaşırlar...

**Qədir ASLAN,**
**"Respublika".**

# Uşaqların sevinci dünyanın sevincidir

**1 iyun — hər bir ailəyə sevinc, xoşbəxtlik, ümid bəxş edən, gələcəyimiz, sabahımız olan Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür. Yer üzündə sülhün, əmin-amanlığın bərqərar olmasını istəyənlər, bu amal uğrunda mübarizə aparanlar uşaqların başı üstündə aydın səma, parlaq günəş görmək arzusu ilə yaşayıblar. Axı irqindən, dinindən, dilindən asılı olmayaraq, hər bir uşağın xoşbəxt yaşamaq hüququ vardır. Uşağa göstərilən diqqət, qayğı isə millətin gələcəyinə göstərilən qayğıdır.**



Azərbaycan dövləti də öz kiçik vətəndaşlarını daim qayğı ilə əhatə edir. Uşaqları xalqın milli sərvəti adlandıran ulu öndər Heydər Əliyevin layiqli davamçısı, ölkə başçısı İlham Əliyev, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Azərbaycan uşaqlarının müdafiəsi istiqamətində böyük işlər görürlər. Dövlətimizin prioritet istiqaməti kimi sabahımız olan uşaqlara günbəgün artmaqda və güclənməkdə olan dövlət qayğısı kimsəsiz, ata-ana himayəsindən məhrum olan uşaqlara daha çox göstərilir, bu uşaqlar dövlət tərəfindən hərtərəfli müdafiə olunurlar.

Hər bir ailənin təməlini möhkəm, sabahını xoşbəxt edən varlığın məhz körpələr olduğunu deyən Suraxanı rayon 2 saylı uşaq evinin müdiri, Əməkdar müəllim Sevda Hacıyeva kimsəsiz, ata-ana qayğısından məhrum olan uşaqlara dövlət qayğısından, İSESKO və YUNESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın dəfələrlə bu uşaq evində olduğundan və hər gəlişində uşaqlara ilk növbədə ehtiyac duyduqları ana nəvazişi göstərdiyindən, maddi və mənəvi ehtiyaclarını ödədiyindən ürəkdolusu danışdı: "Heydər Əliyev Fondunun himayəsi altında olan 2 saylı Uşaq evi hər zaman dövlətimizin diqqət mərkəzindədir. Fondun dəstəyi ilə burada təmir-bərpa, abadlıq işləri aparılmış, müasir avadanlıqlarla təmin olunmuşdur. Əsas korpusda yerləşən Uşaq evi, habelə məktəbəqədər və məktəbyaşlı uşaqlar üçün nəzərdə tutulan 140 uşağın təlim-tərbiyə aldığı günərzi qayğı mərkəzi, kitabxana, akt zalı, yeməkxana, psixoloq, loqoped, stomatoloq kabinetləri təmir olunub, həyətdəki əyləncə və idman meydançaları yeniləşdirilmişdir. Fond tərəfindən bizə yeni kompüterlər, müasir televizorlar, kondisionerlər hədiyyə edilmişdir. Bu ilin dekabrında yeni il qabağı uşaqları təbrikə gələn Heydər Əliyev Fondunun vitse-prezidenti, İDEA İB-nin rəhbəri Leyla xanım Əliyeva Uşaq evinə yeni kondisioner və son istehsal televizor bağışladı. Demək olar ki, Mehriban Əliyeva və Leyla Əliyeva il ərzində ən azı 3-4 dəfə bizim Uşaq evində olur, hər gəlişlərində buradakı qayğı mərkəzinə baş çəkir, uşaqların təhsili və yaşayışı ilə maraqlanırlar. Onu da deyim ki, orta məktəb səviyyəsində bilik qazanmaq üçün qəsəbədə yerləşən 282 saylı orta məktəbdə dərs alan uşaqlar respublikada keçirilən müsabiqə və olimpiadalarda fəal iştirak edir, ali məktəblərə qəbul zamanı yüksək nəticələr göstərirlər. Çünki Heydər Əliyev Fondu 2018-ci ilin sentyabr ayından bu məktəbdə təhsil alan VIII-IX sinif şagirdlərimiz üçün bütün fənlərdən hazırlıq kursları təşkil edib. Bu da şagirdlərin biliklərə daha dərindən yiyələnmələrinə, bilmədiklərini kurslarda öyrənmələrinə çox kömək olur. Yeri gəlmişkən, bizim Uşaq evi Heydər Əliyev Fondunun "Uşaq evləri və internat məktəblərinin inkişafı" Proqramı çərçivəsində yenidən qurulub. İndi bizdə 3 yaşından 16 yaşına qədər 137 nəfər yetim və valideyn himayəsindən kənar uşaqlar təlim-tərbiyə alır. "Azərbaycan Respublikasında Dövlət Uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi və alternativ qayğı Dövlət Proqramı"na (2006-2015) uyğun olaraq Suraxanı rayonu və Xəzər rayonu pilot rayonlar kimi götürülmüşdür. Heydər Əliyev Fondunun bizə qayğısının təzahürü kimi respublikada ilk dəfə olaraq bu layihə 2009-cu ilin yanvarından 2 saylı Uşaq evində həyata keçirildi. Bu pilot layihənin məqsədi risk qrupuna aid ailələrin uşaqlarının, habelə tək valideyni olan əlil ailələrin övladlarının günərzi qayğı mərkəzinə qəbul edilməsidir. Bu uşaqlar mərkəzdə 12 saat olurlar. Onlar məktəbə aparılıb-gətirilir, mərkəzdə gün ərzində qidalanır, axşam evlərinə dönürlər.

Bundan başqa, Heydər Əliyev Fondu Zirə qəsəbəsində 2 saylı Uşaq evi üçün "Dalğa" yay düşərgəsi inşa etmiş və 2016-cı il iyunun 22-də düşərgənin açılış mərasimində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak etmişdilər. Bütün bunlar dövlətimizin uşaqlara göstərdiyi diqqət və qayğının müəyyən bir hissəsidir. Biz də işimizlə, əməlimizlə bu etimadı doğrultmağa, hər bir uşağın əsl vətəndaş kimi yetişməsinə var qüvvəmizlə çalışırıq.

Sonda onu demək istəyirəm ki, bəli, 1 İyun-Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür. Lakin uşaqların müdafiəsi təkcə bir günün işi deyil, Sabahımız olan uşaqları qorumaq, onlara dünya dolu sevinc bəxş etmək hər kəsin daimi işi, mənəvi borcudur. Gəlin onları sevək, sevindirək. Uşaqların sevinci dünyanın sevincidir.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**



# "İqtisadiyyat və İdarəetmə" ixtisasları üzrə təhsil alan magistrlərin I Beynəlxalq Elmi Konfransı keçirilib





**Mayın 31-də "İqtisadiyyat və İdarəetmə" ixtisasları üzrə təhsil alan magistrlərin I Beynəlxalq Elmi Konfransı keçirilib.**

"Fairmont Baku Flame Towers" otelində təşkil olunan konfransda Təhsil naziri Ceyhun Bayramov, təşkilat və komitə sədrləri, millət vəkilləri, rektorlar, ictimaiyyət nümayəndələri və digər qonaqlar iştirak ediblər. Konfransdan öncə iştirakçılar BMDM-nin magistrlərinin rəsm əsərlərindən ibarət sərgi ilə tanış olublar.

Beynəlxalq konfrans Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

UNEC-in rektoru, professor Ədalət Muradov magistrləri I Beynəlxalq Elmi Konfransın keçirilməsi münasibətilə təbrik edərək, konfransın işində onlara uğurlar arzulayıb. UNEC-in elmi tədqiqatyönümlü universitetə çevrilməsi istiqamətində atdığı addımlardan danışan rektor, universitetdə elmi fəaliyyətin səmərəliliyinin artırılması məqsədilə həyata keçirilən islahatlara diqqət çəkərək, UNEC müəllimlərinin Web of Science-də çap olunan məqalələrinin 76%-nin məhz son 4 ilin payına düşdüyünü bildirib. Rektor UNEC-də iqtisadiyyat elminin aktual problemlərini araşdıran 26 tədqiqat mərkəzinin yaradıldığını, həmin mərkəzdə aparılan tədqiqatın nəticələrinin dünyaca məşhur "Şpringer" nəşriyyatında çap olunduğunu xüsusi vurğulayıb. Kitabın "Şpringer" nəşriyyatında iqtisadiyyat üzrə Azərbaycandan nəşr olunan ilk və yeganə olduğunu diqqətə çatdırıb. Rektor magistr və tələbələrin elmi fəaliyyətlərinin stimullaşdırılması məqsədilə UNEC-də mükafatlandırma sisteminin yaradıldığından da söz açıb. Bildirib ki, impact dərəcəsindən asılı olaraq nüfuzlu jurnallarda çap olunan hər bir məqaləyə görə UNEC-in bakalavr və magistrləri 4000 manatadək mükafat əldə edə bilirlər. Ə.Muradov UNEC-in ikili diplom proqramlarına da toxunub. Yeni tədris ilindən UNEC-in ABŞ-ın Linkoln Universiteti ilə magistratura pilləsi üzrə ikili diplomu reallaşdıracağını deyən rektor, həmin magistrlərin təhsil aldıqları müddətdə lisenziya əsasında ABŞ-da əmək fəaliyyəti ilə də məşğul ola biləcəklərini deyib.

